## BİLMƏMİSƏN

**Habil Yaşar**

Gün keçib, ay dolanıb
Mənsiz məni sevmisən.
O bir söz nədir axı?
Sən niyə gecikmisən.

Çox yemisən qəm-kədər
Üzüb səni dərd-qəhər
Günlərin keçib hədər
Sevinib, gülməmisən.

Gülərdim gül deseydin
Ölərdim öl deseydin
Sən mənə gəl deseydin
Gələrdim, görməmisən.

Sevgin başa tac imiş
Qəlbin eşqə ac imiş
Mənə də əlac imiş
Dərdimi bilməmisən.

## OXU AY QƏDİR

**Əjdər Yunus Rza**

Ömür ötür, qəddimi ay, il əyir
Bu nə hicran, tükənməyir, bitməyir
Bir qarışdan əlim yurda yetməyir
Yolumdakı bərə nədir, bənd nədir
Oxu barı, məni anlat, ay Qədir.

Cəhənnəmdir çadırdakı hər günüm
Nə ümidlə cənnət üçün de, ölüm
Heç bilmirəm kimlər ilə dərd bölüm
Çəkməyənlər hardan bilər dərd nədir
Oxu barı, məni dağlat, ay Qədir.

Xəcil oldum öz obamda, elimdə
Yox qələmdən özgə silah əlimdə
Yurd deməkdən yurd bitibdi dilimdə
Bilməyənlər nə bilir ki, yurd nədir
Oxu barı, məni ağlat, ay Qədir.

Biganələr yaman artır, çoxalır
Yurd dərdlilər, dərddə yanır yaxılır
Baxıram ki, yurdlarımız boş qalır
Yaman uzaq gedir elat, ay Qədir
Oxu barı, onu saxlat, ay Qədir.